دليل المسلم الجديد

اللغة الاذرية

Azərbaycan dili

ما هو الإسلام ؟

# Yeni müsəlmanın bələdçisi

## İslam nədir?

İslamı tanımaq üçün mühüm panellər

mahadsunnah.com
sarhaan.com

MahadSunnah

Azərbaycan الأذربيجانية

# 3 Tövhidin qisimləri

Allahı (əzzə və cəllə) ona aid olan rububiyyətində, uluhiyyətində və ad və sifətlərində təkləşdirmək.

Onun üç növü var

### Ad və sifət tövhidi

Allahı (əzzə və cəllə) öz kitabında və ya Peyğəmbərinin ﷺ dili ilə özünü adlandırdığı və vəsf etdiyi kimi təkləşdirməkdir. Bu da, heç bir təhrif etmədən, inkar etmədən, keyfiyyətə varmadan və bənzətmədən Allahın özünə təsdiq etdiyini təsdiq etməklə, inkar etdiyini inkar etməklə həyata keçirilir.

### Uluhiyyət tövhidi

Allahı (əzzə və cəllə) ibadətdə və ya qulların feillərində təkləşdirməkdir.

### Rububiyyət tövhidi

Allahı (əzzə və cəllə) feillərində təkləşdirməkdir. Və ya Allahı (əzzə və cəllə) yaratmağında, sahibliyində və işləri idarə etməyində təkləşdirməkdir.

# Dinin üç mərtəbəsi var

## Ehsan

Allaha (əzzə və cəllə) Onu görürmüş kimi ibadət etmək. Sən onu görməsəsn də, O səni görür.

**Bir rüknun altında iki qisim**

1-Müşahidə ibadəti
Allahı görürmüş kimi ibadət etmək
2-Nəzarət ibadəti
Sən onu görməsəndə o səni görür

## İman

Dil ilə demək, qəlb ilə etiqad etmək və əzalarla əməl etməkdir. Artır və azalır.

**İmanın ərkanları: 6**

1-Allaha iman
2- Mələklərinə iman
3- Kitablarına iman
4- Peyğəmbərlərinə iman
5-Axirət gününə iman
6- Qədərin xeyirinə və şərinə iman

## İslam

Allaha (əzzə və cəllə) tövhid ilə təslim olmaq, itaət ilə boyun əymək və şirk və əhlindən uzaq durmaqdır

**İslamın ərkanları: 5**

1- Şəhadət gətirmək
2- Namaz qılmaq
3- Zəkat vermək
4- Ramazan orucu tutmaq
5- Həcc etmək. (kim bacarırsa)

# 4 Haramların qisimləri

### Kiçik günahlar

(Böyük günahlardan başqa hamısı) Böyük günahlar istiğfarla silinir, kiçik günahlar isə təkrarlandıqca böyük olur. Peyğəmbər ﷺ buyurub: Sizi kiçik günahlardan çəkindirirəm, çünki onlar insanda o qədər toplanar ki, sonunda onu həlak edər.

### Böyük günahlar

(Xüsusi bir cəza gələn hər bir əməl) Sehr, valideyinlərin Üzünə ağ olmaq, faiz, zina, yalan, sərxoşedici içkilər, oğurluq, qeybət, Allahın icazə vermədiyi cana qıymaq və yetim malı yemək kimi.

### Kiçik şirk

(İslamdan çıxarmır, Böyük günahdır) "Allah və sən istəsən" sözü kimi, Allahdan başqasına and içmək kimi, kiçik riya, şirk olan boyunbağı, bədbinlik, ələm və göz muncuğu kimi əməlləri, qorumağa səbəb və ya göz qaytaran səbəb kimi edərsə.

### Böyük şirk

(İslamdan çıxarır, onun üzərində ölsə bağışlanmır) Allaha tay seçməkdir. Allaha dua etdiyi kimi ona dua edir, qorxduğu kimi qorxur, Allahı sevdiyi kimi onu da sevir və ya ibadət növlərindən birini ona yönəldir.

# Dəstəmazın, təyəmmümün və qüslun alınması qaydaları. 2

## Dəstəmazın forması.

Dəstəmaz üçün qəlbdə niyyət «qəsd bildirilir» edilir,sonra bismilləh deyilir,sonra isə əllər yuyulur.



1

sağ ovucla ağıza su alıb, yaxalayıb geri çıxartmaq,sonra buruna su çəkib ,sol şəhadət və baş barmağın köməyi ilə buruna çəkilən suyu geri çıxartmaq.



2

üzü yumaq - yuxarıdan saçın çıxdığı yerdən aşağı « boğazda » saqqalın son bitdiyi yerə və eninə iki qulağın arası olan hissələrin yuyulması.



3

sağ tərəfdən başlayaraq, əlləri, barmaqların arasını və dirsəklərə « dirsəklə bərabər » qədər yumaq.



4

Başın hər tərəfinə- əlləri alın nahiyəsindən arxa boyun tərəfə sürtərək, sonra geriyə qaytararaq məsh çəkmək.



5

iki şəhadət barmağı ilə qulağın içinə, baş barmaqla isə çöl tərəfinə məsh çəkmək



6

Sonra ayaqları topuqlarla birgə yumaq.



7

- Dəstəmaz əsnasında şəriətın qoyduğu miqdardan əlavə hərəkətlərin edilməsinin hökmü nədir ?

Dəstəmaz alarkən, əzaları üç dəfədən artıq və ya dirsəkdən yuxarı və ya topuqdan yuxarı hissələri yumaq icazəli deyildir.



8

- Dəstəmazdan sonra deyilən zikr :

« Əşhədu ən lə ilahə illəllahu vəhdəhu lə şərikə ləhu və əşhədu ənnə Muhəmmədən abduhu və Rasuluhu » «Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Və şahidlik edirəm ki, Muhəmməd onun qulu və Elçisidir»

Ət-Tirmizidə varid olan isə [Allahumməc'alni minət-təvvabiynə vəc'alniy minəl-mutətahhiriyn] Allahım! Məni tövbə edənlərdən et! Və məni təmizlənənlərdən et!

9

- Dəstəmazı pozan amillər .

1- Ön və arxa çıxışlarından xaric olan sidik,nəcis və ya yel.

2- Huşunu itirmək yaxud da yatmaq səbəbi ilə ağlın başdan getməsi

3- Dəvə əti yemək

10

## Təyəmmüm barədə

Su tapmadıqda, xəstəlik və ya şiddətli soyuq hava səbəbi ilə suyun zərər verəcəyindən qorxduqda dəstəmazı və ya qüslu əvəz edən torpaqla olan təmizlikdir.

1

Təyəmmüm üçün niyyət edib, sonra bismilləh deyilir və əlləri yerə vurub ,sonra oraya üfürüb üzə və əllərin üst tərəfinə məsh çəkilir .




2

Təyəmmüm əsnasında barmaqları aralamaq, aralarını ovmaq şəriətdə varid olmayıb



3

## Vacib olan qüslun qaydaları

Niyyət edilir, səssiz bismilləh deyilir. bütün bədəni su ilə yumaq, bu vaxt sıx və ya seyrək saçların dibini ovxalayıb islatmaq,ağızı yaxalayıb və buruna su çəkmək lazımdır.

1

- Qüslu vacib edən hallar :

1- Yuxuda və ya oyaq halda məninin(sperma) ifraz olunması, məni ifraz olmayan cinsi yaxınlıq və s.hallar . 2- Heyz(aybaşı) və nifasın (doğuşdan sonra qanaxmanın) bitməsi. 3- Ölüyə (şəhidlərdən başqa) 4- İslamı qəbul edən kafir

2

Hazırlayan : Peyğəmbər məscidinin müəllimi və "Sünnə İnstitutu : « mahadsunnah.com » un nəzarətçisi Dr.Heysəm Sərhan.



Müəllif , yayım və paylama hüquqları qorunur.
Broşuru tərcümə etmək üçün: sarhaan.com və ya barkodu skan edin.

# Peyğəmbər ﷺ namazının forması

1

İmamın və tək şəxsin sutrə ilə namaz qılması sünnətdir. İmamın sütrəsi isə arxasında duranlar üçün sütrədir.

Namaz qılan baxışlarını səcdə etdiyi yerə dikər, sağa sola baxmaz.



(1)

Ayaqlarının arasını çiyinləri bərabərində olduğu kimi saxlamalı, Artırmamalı azaltmamalı, ayaqların çölünü düzəltməlidir.



(2)

Namazın şərtlərini tamamladıqdan sonra əllərini ovuclarının içi qibləyə baxaraq çiyinləri və ya qulaqları bərabərinə qaldırıb, "Allahu əkbər" deyir.



(3)

Sonra sağ əlinin içini sol əlinin uzərinə, biləyinə və ya qoluna, qoyaraq "sinəsində" tutar.



(4)

Sonra müstəhəbdir ki, açılış duası oxunsun yalnız birinci rükətdə. Varid olan açılış duaları arasında növbələndirsin Deyilir: Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmətin ucadır. Səndən başqa məbud yoxdur!.

Sonra "Daşlanmış şeytandan Allaha sığınıram" deyərək Allaha sığınılır.

Sonra bismilləhir Rahmənir Rahim deyərək ayələri, kəlimələri, hərfləri və hərəkələri tərtib olunmuş Fatihə surəsini oxuyursan.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ {1} الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ {2} الرَّحْمَٰنِ الرَّحِيمِ {3} مَالِكِ يَوْمِ الدِّينِ {4} إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ {5} اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ {6} صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ {7}

Sonra mustəhəbdir ki, Allaha sığınmadan ( əuzu billəh minəş seytanir racim demədən ) Qurandan sənə asan olanı oxuyasan. Bisimilləhir Rahmənir Rahimi yalnız surələrin əvvəlində oxuyursan.

(5)

Sonra Allahu əkbər { "Allah böyükdür" } deyərək ehram təkbirində əllərini qaldırdığı kimi əllərini qaldırır və ruku edib , dizlərini tutur və dirsəklərini əymir və kürəyini başı ilə düz edir və vacibdir ki bir dəfə bu zikri deyir:

« سبحان ربي العظيم »

Böyük Rəbbim pak və müqəddəsdir" və varid olan digər zikirləri də etmək müstəhəbdir.



(6)

Sonra rukudan qalxaraq və tam düzəlməzdən əvvəl: « سمع الله لمن حمده » "Allah Ona həmd edənləri eşidir" deyir. Zikirlə yanaşı əllərini, qulaqları və ya çiyinləri səviyyəsinə qaldırır.

Tam belini qaldırıb düzəldikdən sonra deyir: « ربنا ولك الحمد » "Ey Rəbbimiz, Sənə həmd olsun!" – deyir. Varid olmuş digər zikirləri də əlavə etmək müstəhəbdir.

Sonra əlləri yuxarı qaldırmadan təkbir desin və yeddi əza üzərində səcdə etsin: alın, burun, əllərin içi, dizlər və ayaq barmaqlarının pəncəsi.

Qoltuq altlarında, qarın və bud arasında, bud və baldır arasında məsafə saxlamalı və dirsəkləri yerdən qaldırmalıdır.



(7)

Bir dəfə: « سبحان ربي الأعلى » "Uca Rəbbim pakdır ! " deməsi vacibdir. Müstəhəbdir ki, varid olun dualrdan əlavə etsin və bəyəndiyi duanı edə bilər, varid olan duaları etmək daha yaxşıdır.



(8)

Sonra təkbir deyib sol ayağının üstündə açıq şəkildə əyləşsin. Sağ pəncəsini qaldırır və sağ ayaq barmaqlarının altını yerə, barmaqlarını isə qibləyə doğru qoyur. O, ovucların içini budlarının üzərinə qoyub: « رب اغفر لي » "Ey Rəbbim, məni bağışla" deyir. Bu oturuş forması, üç rükətli və dörd rükətli namazın sonunda istisna olmaqla, bütün namazların rükətlərində oturulur. Bu namazlarda isə { üç rükətli və dörd rükətli namazların sonuncu rükətlərində } istirahət { tavarruk } oturuşu ilə otururlar. Sol ayağını sağ ayağının baldırının altına qoyursan.



(9)

Sonra təkbir deyib ilk səcdə kimi səcdə etsin. Sonra təkbir deyib ikinci rükətə qalx və birinci rükətdə etdiyini ordada et, ancaq bil ki, ikinci rükətdə ehram təkbiri və açılış duası yoxdur.



Əgər ikinci səcdəsini tamamlamışsa, təşəhhüd üçün oturmalıdır.

O, orta və baş barmağını dairə edərək, digər barmaqlarını bükur və şəhadət barmağını düz tutaraq işarə edir və hərəkət etdirərək dua edir.



O, təşəhhüd duasını sonra salavatı deyir :

Salamlar, dualar və gözəl şeylər Allaha aiddir. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti (olsun)! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! .

Sonra dörd şeydən Allaha sığınır :

Allahım! Qəbir əzabından, Cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən, dəccal məsihin fitnəsinin şərindən Sənə pənah aparıram!

Sonra istədiyi duanı edə bilər, amma ən yaxşı odur ki, varid olan dualardan etsin: " Allahummə, Səni zikr etməkdə, Sənə şükür etməkdə və Sənə gözəl ibadət etməkdə mənə kömək et ".

Sonra sağa və sola salam verir və :

"əs-Sələmu aleykum va rahmətullah" deyir və sadəcə başını sağa sola Döndərir, çiyinlərini deyil. Əli ilə işarə etmədən və başını aşağı yuxarı Hərəkət etdirmədən.



(10)

Hazırlayan : Peyğəmbər məscidinin müəllimi və "Sünnə İnstitutu: mahadsunnah.com" un nəzarətçisi Dr.Heysəm Sərhan.



Müəllif , yayım və paylama hüquqları qorunur - Broşuru tərcümə etmək üçün: sarhaan.com və ya barkodu skan edin.

# Həcc ayinləri






- **Həccin rükunları:** Kim bir rüknu tərk edərsə onu yenidən etməsə həcci səhih deyil
- **Həccin vacibatları:** Kim bir vacibi tərk edərsə, onun üzərinə qurban kəsmək düşür

alsarhaan.com
sarhaan.com

# Allahın insanları fitrət ilə yaratdığı sifətlər.

# Sünnədə olan təbii təmizlik

İnsanın bunlara həm meyli,həm də əsas ehtiyacı var. Ancaq onu əhatə edən cəmiyyət onlara təsir edir. Beləki bu təmizlik barəsində bir çox səhih peyğəmbər rəvayətlərində (hədislərdə) olaraq qeyd edilmişdir.

| ***Sünnələr*** | ***hökmü*** | ***Izahı*** |
|---|---|---|
| 1- Bığları qısaltmaq. | Sünnədir,dibindən tamamilə qırxmaq məkruhdur. | Bığla bağlı sünnət onu kəsib azaltmaq və dodağın kənarları görünənə qədər götürməkdir. |
| 2- saqqalı uzatmaq. | Vacibdir. | Saqqalı qırxmaq qadağandır; çünki onun uzadılmasına dair peyğəmbərlik əmrinə ziddir. |
| 3-misvakdan istifadə etmək. | Tərk olunmaz sünnədir. | Dişləri təmizləmək üçün “Ud Əl-Ərək” çubuğu və buna bənzər şeylərdən hər zaman istifadə etmək, sünnədir və tərk olunmayandır:beləliklə, dəstəmaz alanda, namaz qılarkən, evə və məscidə girəndə, Quran oxuyanda, yuxudan qalxarkən nəzərində olduğunda, ölüm zamanı, ağız qoxusunu dəyişdirəndə. |
| 4- burunu su ilə yaxalamaq. | Dəstəmazın müstəhəbb əməllərindəndir. | Burnun içinə su çəkərək yumaq və sonra çıxarmaq. |
| 5- dırnaqları tutmaq. | Sünnədir və onu 40 gündən çox gecikdirməy olmaz. | Dırnaqları kəsmək; şübhəsiz ki onu kəsməyib uzatmaq altında kir yığılmasına səbəb olur. |
| 6- barmaqların arasını yumaq. | Sünnədir. | Kir toplanan yerləri təmizləmək; Onlar barmaqlarda (barmaqlar arasında) qıvrımlar və buğumlardır. |
| 7- qoltuqaltı tükləri yolmaq. | Sünnədir və onu 40 gündən çox gecikdirməy uyğun deyil. | Bu, qoltuqaltında bitən tüklərin yolma, qırxma və ya başqa üsullarla alınmasıdır. Beləki qoltuğun təmizliyi saxlanılır və pis qoxusunun qarşısı alınır. |
| 8- ayıb yerləri qırxmaq | Sünnədir və onu 40 gündən çox gecikdirməy uyğun deyil. | Övrət (ön və arxa) hissələrin ətrafındakı tüklər<br><br>təraş olmadan çıxarıla bilər; İstehsal olunan təmizləyici krem kimi vasitələrlə. |
| 9- istinca ; subaşından sonra daş və ya su ilə təmizlənmək. | Ayaqyolunda ehtiyacı ödəmə ədəblərindəndir. | Övrət yerindən (iki dəlikdən) çıxan və ya dəliklər ətrafında olan nəcasəti su və ya başqa təmizləyicilərlə aradan qaldırmaq. |
| 10- ağızı su ilə yaxalamaq olar. | Dəstəmazın sünnələrindən sayılır. | Ağzıa ovucla su alıb yuduqdan sonra suyu çıxartmaq. |
| **Aişədən, Peyğəmbərin** *(salləllahu aleyhi və səlləm.)* **belə dediyini nəql edir: "On şey fitrətdəndir: Bığları qısaltmaq, saqqalı uzatmaq, misvakdan istifadə etmək, burunu su ilə yaxalamaq, dırnaqları tutmaq, oynaqları yumaq, qoltuqaltı tükləri yolmaq, ayıb yerləri qırxmaq, subaşından sonra daş ilə təmizlənmək". Zəkəriyyə deyir: Musab deyirdi ki, onuncusunu isə unutmuşam. Yəqin ki, ağızı su ilə yaxalamaq olar** (Muslimin rəvayəti) | | |
| 11- sünnət(xitan) olmaq. | Sünnət kişilərə vacib,qadınlara isə ehtiyac olarsa sünnə olan əməllərdən sayılır. | Övrətin baş hissəsini örtən dərinin kəsilməsidir ki,kir yığılmasın və həmçinin sidik damcısı qalmasın. |
| **Əbu Hureyrə** *(radıyəllahu anhu)*, **Peyğəmbərin** *(salləllahu aleyhi və səlləm)* **belə dediyini rəvayət edir: "Beş şey fitrətdəndir:sünnət olmaq** ...,(Buxari və Muslim) | | |



Mənbə:Şeyx Heysəm Sərhaanın(Allah onu qorusun) “Fəthul Mu'in haqqı Təqrib Mənhəc əs-Salikin və Tövzih əl-Fiqh haqqı əd-Din” 1443 ci il.
**For Contact:** https://alsarhaan.com

## 1-Uca Allahın Haqları:

Yalnız heçbir ortağı olmayan Ona ibadət edən və Ona boyun əyən, Onun əmrlərinə uyan, qadağalarından çəkinən və Onun bizə xəbər verdiklərinə inanan bir qul olmağındır. Tam bir əqidə, həqiqi mənada bir iman və meyvələrini verən saleh əməllərdir. Bu əqidənin sütunu: sevgi və təzim Meyvəsi: İxlas(xalis Allah üçün) və səbirdir.

## 2-Rasulullahın (Allahın salamı və salavatı onun üzərinə olsun) haqqı:

Ona dərin hörmət və ehtiram göstərmək, onu uca tutmaqdır. Ancaq bu təzim, ona layiq bir tərzdə həddi aşmadan və haqqında nöqsanlara yol vermədən olmalıdır. Onun -keçmiş və gələcək hadisələr haqqında xəbər verdiklərini təsdiq etmək, çəkindirdiklərindən uzaq durmaq, əmrlərini yerinə yetirməkdir. Onun yolunun ən üstün yol olduğuna inanmaqdır. Habelə onun şəriətini və yolunu müdafiə etməkdir.

## 3-Valideyn haqları:

Onlara, söz və hərəkətlərimizlə, malımız və canımızla xeyirli övlad olmaq. Allaha itaətsizlik və özümüzə zərər vurmamaq şərtilə onlara itaət etməliyik.

## 4-Uşaqların üzərimizə düşən haqları:

1-Tərbiyə; Din və əxlaq xüsuslarını qəlblərinə yerləşdirmək.
2-Onlar üçün israf və ya xəsislik etmədən xərcləmək.
3-Övladlar arasında xərcləmə və hədiyyələr xüsusunda ayrıseçkilik etməmək.

## 5-Qohum-əqrəbaya qarşı üzərimizə düşən vəzifələr:

Qohumlarla ən gözəl şəkildə davranmaq və ehtiyaclarına müvafiq şəkildə kömək etmək və dəstək vermək hər kəsin vəzifəsidir.

## 6-Ər və arvad haqları:

Birbiriylə mehriban davranmaq, qarşılıqlı haqları lütf və asanlaşdırmaqla həyata keçirmək, kişinin və ya qadının lazımınca gücünü sərf etdiyi əməlləri heçə saymamaq və bir-birlərinə olan öhdəlikləri gecikdirməmək lazımdır. Beləki qadının əri üzərindəki haqqı: yemək, içmək, geyim və yaşayış yeri ilə qadını təmin etmək,əgər kişinin bir-neçə yoldaşı varsa onların arasında ədalətli davranması lazımdır.

**Həmçinin kişinin qadın üzərindəki haqqı**:
Ona günah əməllər istisna olmaqla itaat etməsi.
Sirlərini və mallarını qoruması.Ərinin haqqı olan, ona faydali olacaq şeylərin hərhansı birindən boyun qaçırmaması.

## 7-Hakim (hökmdar) və xalqın bir-birinə olan haqları:

Xalqın rəhbərləri üzərindəki haqları; Allahın onlara əmanət etdiyi vəzifələri yerinə yetirmələri və lazım gəlsə onlardan bunu tələb etmələri. Xalqa qarşı xeyirxah olmaq və onlara dünya ve axirətə aparan düzgün yolları, vasitələri göstərib onlara çatdırmaq.Bu da möminlərin yolunu izləmək ilə olur. Rəhbərlərin xalq üzərindəki haqları: Rəhbərlər üçün xeyir istəmək ve xeyirli olmaq, qəflətə düşərsə xəbərdar etmək. Haqdan uzaqlaşan üçün dua etmək. Günah işlər olmadıqca itaət və yardım olunmaları.

## 8-Qonşu haqları:

Qonşu: Evi sizə yaxın olandır. Əlindən gəldiyincə pul, məqam və mənfəətlə ona yaxşılıq etmək, onlara zərər vura biləcək söz və əməllərdən çəkinmək. 1- Qonşunun qohum olaraq sizə yaxınlığı varsa və həmçinin müsəlmandırsa üç haqqı olacaqdır: Qonşuluq haqqı, qohumluq haqqı və İslam haqqı. 2- Müsəlman olub da qohumluğu yoxdursa iki haqqı vardır: Qonşuluq haqqı və İslam haqqı. 3- Eyni şəkildə qohumluğu olub da müsəlman deyilsə iki haqqı vardır: Qonşuluq haqqı və qohumluq haqqı. 4-Qeyri-müsəlmandırsa və qohum deyilsə bir haqqı vardır: o da qonşuluq haqqıdır.

## 9-Müsəlmanların bir-birinə olan haqqı:

Salam vermək, dəvətinə icabət etmək, nəsihət istəyənə nəsihət vermək, asqırdığı zaman əlhəmdulilləh deyərsə ona yərhmukəAllah demək,xəstələndikdə onu ziyarət etmək, öldükdə cənazəsində iştirak etmək, ona zərər verməmək. Müsəlmanların biri biri üzərində haqları çoxdur, Peyğəmbərimizin bu haqlari özündə cəm edəcək bu sözünü nəzərdə saxlamalıyıq: "Müsəlman müsəlmanın qardaşıdır." Bu sözü özünə nümunə götürən hərkəs xeyirli işlərə can atar və zərərli işlərdən uzaq olar.

## 10-Qeyri-müsəlmanların haqqı:

Müsəlmanların rəhbərlərinin onlar(qeyri-müsəlman) üzərində mal, can ve şərəf ləyaqət xüsuslarında islami hökmləri tətbiq etmək.Haram işlər gördükləri xüsuslarda hədd (cəza) tətbiq etmək. Habelə Onları himayə etmək və zərər verməkdən çəkinmək.Müsəlmanlardan zahirən fərqlənmələri üçün müsləmanlar kimi geyinmələrinə mane olmaq. İslamda münkər bir şeyi, onların dini şüarlarını (kilsə zəngi və xaç kimi) nümayiş etdirmələrinə mane olmaq.

## Məhəmməd peyğəmbər ﷺ kim idi və bizə nə öyrətmişdir ?

- O, 1400 il dən bəri bütün bəşəriyyətin hüquqlarını müdafiə edən biridir.

- Kişilərin, qadınların, uşaqların və zəiflərin hüquqlarını qorumuşdur.

- O, heyvanları və bitkiləri qorumuş və ətraf mühitin qayğısına qalmağa çağırmışdır.

- Bizə gözəl əxlaqlı olmağı , qohumlar və qonşular arasında münasibətləri inkişaf etdirməyi əmr etdirmişdir.

- O, müsəlmanlarla qeyri-müsəlmanlar arasında birgə yaşayış əlaqələrini qurmuşdur.

- O, valideynlərin övladları üzərində böyük və əzəmətli hüquqlarını təmin edən ailə münasibətlərini tənzimləmiş və inkişaf etdirdmişdir.

## Məhəmməd peyğəmbər ﷺ kim idi və bizə nə öyrətmişdir ?

- Zülmdən çəkindirmiş, ədalətə, sevgiyə, birliyə, yaxşı işlərdə yardımlaşmağa çağırmışdır.

- O, ehtiyacı olanlara kömək etməyə, xəstələri ziyarət etməyə, bir-birini sevməyə, nəsihət etməyə çağırmışdır.

- O, müsəlmanları oğurluq, fırıldaq, zorakılıq və zülm kimi pis işlərdən çəkindirmişdir.

- Həyatımızı, əxlaqımızı pisdən yaxşıya dəyişən odur.

- O, müsəlmanlara yalan danışmamağı öyrətmişdir.

- O, müsəlmanlara sərxoşedici içkiləri qəbul etməməyi öyrətmişdir.

- O, müsəlmanlara zina etməməyi öyrətmişdir.

## Məhəmməd peyğəmbər ﷺ kim idi və bizə nə öyrətmişdir ?

- O, müsəlmanlara xəyanət etməməyi, aldatmamağı öyrətmişdir.

- O, müsəlmanlara günahsız insanlarla vuruşmamağı öyrətmişdir.

- O, müsəlmanlara həm müsəlman, həm də qeyri-müsəlman qonşularına zərər verməməyi öyrətmişdir

- O, müsəlmanlara valideynlərinə qarşı mehriban olmağı və eyni dindən olmasalar belə onlara xidmət etməyi öyrətmişdir.

- O, müsəlmanlara uşaqlara, qadınlara, zəiflərə və qocalara qarşı mərhəmət göstərməyi öyrətmişdir.

- O, müsəlmanlara heç bir insana və heyvana zərər verməməyi, ətraf mühitə zərər vurmamağı öyrətmişdir.

## Məhəmməd peyğəmbər ﷺ kim idi və bizə nə öyrətmişdir ?

- O, müsəlmanlara həyatlarının son gününə qədər həyat yoldaşlarını sevməyi, uşaqlarına qayğı göstərməyi, onlara mərhəmət göstərməyi öyrətmişdir

- O, müsəlmanlara övladları yetkinlik yaşına çatdıqdan sonra belə, heç vaxt onlarla əlaqəni kəsməməyi öyrətmişdir

- Hər bir müsəlman Məhəmmədi ﷺ hamıdan çox sevir.

- Musa və İsa peyğəmbər onu gəlişi ilə qövmünü müjdələdilər.

- Hər bir müsəlman Musanı və İsanı (onlara Allahın salamı olsun) sevir və onların peyğəmbərlərin ən üstünlərindən olduqlarına inanır.

- Məhəmməd Peyğəmbər ﷺ ərəblərə və qeyri-ərəblərə göndərilmişdir.

## Məhəmməd peyğəmbər ﷺ kim idi və bizə nə öyrətmişdir ?

- Onun dinində ərəblərlə qeyri-ərəblər arasında təqvadan başqa heç bir üstünlük yoxdur.

- Həqiqətən də Muhəmməd ﷺ Allahın elçisidir.

- İndi bütün müsəlmanların Məhəmmədi ﷺ niyə sevdiyini bildinizmi ?

- Muhəmmədin ﷺ müsəlmanlar üçün kim olduğunu indi bildinizmi ?

Allahın Elçisi Muhəmmədlə ﷺ bağlı ətraflı məlumat və onu daha yaxından tanımaq üçün müraciət edin :

Şeyxin rəsmi saytı

sarhaan.com

"Sünnə" tədris mərkəzi

mahadsunnah.com

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

Peyğəmbərliyin dəlilləri və peyğəmbərliyin əlamətləri

Qurani kərim

Yəhya ibn Əksəm (Allah ona rəhmət etsin) dedi: Əmir olan Əl-Məmunun bir şurası (yəni mübahisə şurası) var idi. İnsanlar arasında gözəl geyinmiş, xoş ətirli və gözəl üzlü bir yəhudi kişi var idi. Danışan vaxtı gözəl danışıq tərzi var idi.

O Məclisdən ayrıldıqda əl-Məmun onu çağırdı və dedi: Sən Yəhudisən?

O, "Bəli" deyə cavab verdi.

Əl-Məmun ona dedi: "İslamı qəbul et, mən sənə bunu edəcəm, bunu verəcəm" deyə yaxşı vədlər verdi.

Yəhudi: "Mənim dinim atalarımın dinidir" dedi və getdi.

Dedi:  Bir il keçdikdən sonra Yəhudi İslamı qəbul edib bizim yanımıza gəldi.

Beləliklə, Fiqh və hədis elmi barəsində səlis danışırdı. Məclisdən ayrıldıqda əl-Məmun onu çağırdı və dedi:

Sən dünənki (keçən ilki) şəxs deyilsən?

O, Əlbətdə deyə cavab verdi.

Əl-Məmun: "İslama daxil olma səbəbin nədir?" deyə soruşdu.

Yəhudi dedi: Dinlə və Allahu Əkbər de.

Mən o gün sizin məclisinizdən çıxdım və bu dinləri sınamaq istədim.

Mən yaxşı dəst-xəttə sahibəm (yəni gözəl yazmağı bacarıram). Ona görə də gedib Tövrata üç nüsxə yazdım. Onda bəzi əlavələr edib bəzi sözləri azaltdım.

Sonra onu kilsəyə daxil etdim. Onu məndən aldılar və onu oxuyub nəzərdən keçirmək üçün özlərini yormadılar.

Sonra gedib İncilə üç nüsxə yazdım. Onda bəzi əlavələr edib bəzi sözləri azaltdım. Sonra onu Yəhudi məbədlərinə daxil etdim. Onu məndən aldılar və onu oxuyub nəzərdən keçirmək üçün özlərini yormadılar.

Sonra gedib Qurana üç nüsxə yazdım. Onu Müsəlman naşirçilərinin yanına gətirdim. Onlar dedilər ki, "Oxuyub nəzərdən keçirməyənə qədər bunu qəbul edə bilmərik".

Onlar onda bəzi əlavələr və bəzi naqislikləri üzə çıxardılar. Durub onu yandırdılar və az qala məni öldürürdülər.

Burdan bildim ki, bu kitab Allah ﷻ tərəfindən qorunur. Bu da mənim islama gəlmə səbəbim oldu.[1]

---

[1] Dəlailun-Nubuvva lil-Beyhəqi 7/159